

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Mingəçevir Şəhər İcra Hakimiyyəti və YAP şəhər təşkilatının təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Heydər Əliyev – əməlləri ilə Azərbaycan tarixində əbədi iz qoyan dahi şəxsiyyət" mövzusunda elmi-nəzəri konfrans keçirilib. Tədbirdən əvvəl ulu öndərin aibdəsi önünə gül dəstələri qoyulub. Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, aparatın məsul şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, YAP şəhər ilk partiya təşkilatı sədrləri, mətbuat işçilərinin iştirak etdiyi konfrans ulu öndərə həsr olunmuş sergiyə baxışla başlanıb.***

# "Əməlləri ilə Azərbaycan tarixində əbədi iz qoyan dahi şəxsiyyət" mövzusunda konfrans

Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov konfransda çıxış edərək bildirib ki, Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə ölkəmizdə geniş tikinti, quruculuq işləri həyata keçirilib və Azərbaycan inkişaf etmiş bir respublikaya çevrilib. Ulu öndərin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi dövründə respublikamızın keçdiyi inkişaf və tərəqqi dövrü müqayisəyəgəlməz rəqəmlərlə xarakterizə edilir. Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı. Müstəqil dövlət quruculuğu prosesi başlandı, Milli Ordu formalaşdırıldı, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Bir sözlə, Azərbaycanın dövlət müstəqilliyi qorunub-saxlanıldı, möhkəmləndirildi və əbədiləşdirildi.

Sevindirici haldır ki, ulu öndər Heydər Əliyevin başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük qətiyyət və cəsarətlə davam etdirilir. Bu gün də, dünən də, əldə edilən nailiyyətlər ulu öndərin siyasətinin davamlı nəticələridir. Onun şah əsəri olan müasir Azərbaycan etibarlı əllərdədir. Ümidlə demək olar ki, bu gündən sonra da Heydər Əliyev ideyaları daim yaşayacaq və yeni-yeni zəfərlər qazanacaqdır.

Konfransıda YAP Mingəçevir şəhər Təşkilatının sədri Cavanşir Yusubov, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov, Mingəçevir Turizm Kollecinin direktoru Kamal Əhmədov, şəhər təhsil şöbəsinin müdiri vəzifəsini icra edən Zamik Cəbiyev, şəhər sakini Nahid Musayev çıxış ediblər. Çıxışlarda ulu öndərin bir şəxsiyyət kimi fəaliyyətindən, onun Azərbaycan dövləti və xalqı qarşısında geniş xidmətlərindən, bu gün əldə edilən zəfərlərdə onun ideyalarının rolundan bəhs edilib.

Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov konfransa yekun vuraraq qeyd edib ki, ulu öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan bu gün onun siyasi xəttinin qətiyyətli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir: "Birmənalı şəkildə qeyd edirik ki, bu gün ölkəmizin əldə etdiyi bütün nailiyyətlərin əsasını məhz müstəqil Azərbaycanın özü qədər əbədi olan ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi xətt təşkil edir. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gündən-günə artması, ölkəmizə etibar olunan beynəlxalq tədbirlər, mədəni və idman yarışları, məhz bu inamın və etimadın, ulu öndər Heydər Əliyevin ideyalarının reallaşmasının nəticələridir".

Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə 30 ilə yaxın bir müddətdə işğal altında olan torpaqlarımız Şanlı ordumuzun qalibiyyəti ilə azad olundu, sərhədlərimiz bərpa edildi. 2020-ci il Azərbaycan tarixinə zəfər ili kimi daxil oldu: "44 gün davam edən müharibədə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər, Laçın rayonları, Xocavənd və Xocalı rayonlarının bir hissəsi azad olundu. Xocalı, Xankəndi şəhərləri, Xocavənd və Ağdərə rayonlarının bir hissəsi hazırda sülhməramlı qüvvələrin nəzarətindədir. İşğaldan azad olunmuş ərazilərdə vaxtilə yaşayan soydaşlarımızın həmin ərazilərə qaytarılması üçün işlər gedir. Əminəm ki, ölkə Prezidenti İlham Əliyevin apardığı diplomatik danışıqlar nəticəsində soydaşlarımız doğma yurdlarına qayıdacaqlar. İşğal olunmuş ərazilərdə bərpa, quruculuq və abadlıq işlərinə start verilmişdir".

Yekun olaraq vurğulanıb ki, bütün sahələrdə qazandığımız uğurlar Heydər Əliyev ideyalarının müdrüklüyünü, əbədiyaşarlılığını və qələbələrə zəmin yaratdığını göstərir.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

Xalq qəzeti .- 2022.- 12 may.- S.4.